**Quş kəsimi müəssisəsində keçirilmiş yoxlamaya dair məlumat**

**(6 mart 2025)**

Bakı şəhəri, Sabunçu rayonu, Maştağa qəsəbəsində fəaliyyət göstərən, fiziki şəxs İsmayılov Elsevər Yunis oğluna məxsus ev quşlarının kəsimi müəssisəsində AQTA əməkdaşları yoxlama keçirib.
Baxış zamanı müəssisədə baytarlıq-sanitariya tələblərinə əməl edilmədiyi, izləmə sisteminin qurulmadığı məlum olub, eyni zamanda soyuducu anbarda baytarlıq sənədi olmayan və istifadə müddəti bitmiş müxtəlif istehsalçılara məxsus 2040 kq toyuq əti aşkarlanıb.
Faktla bağlı müəssisə rəhbəri barəsində inzibati protokol tərtib olunub, istehlaka yararsız məhsulların dövriyyədən çıxarılması və məhv edilməsi ilə bağlı qərar qəbul edilib.